**UOT: 908(479.24)**
**ORCID: 0009-0008-9603-7890**
**https://doi.org/10.52094/XGMO5356**

**Aytac İsmayılova Hümbət qızı**
**Azerbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**aytacismylv2003@gmail.com**

# AZƏRBAYCANDA ALMAN MEMARLIQ İRSİNİN QORUNMASI VƏ MÜZEYLƏŞDİRİLMƏSİ: LÜTERAN KİLSƏSİNİN NÜMUNƏSİNDƏ

**Xülasə:** Məqalədə XVIII əsrin sonu – XIX əsrin əvvəllərində almanların Cənubi Qafqaza, xüsusilə Azərbaycan ərazisinə köçü, bu prosesin sosial-iqtisadi, siyasi və dini motivləri və koloniyaların formalaşması tarixi tədqiq edilir. Helenendorf (indiki Göygöl) və Annenfeld kimi məskənlərin yaranması regionun urbanistik inkişafına təsir göstərmiş, sənaye, kənd təsərrüfatı və şəhərsalma sahələrində yeniliklər tətbiq olunmuşdur. Tədqiqatda Göygöldəki Müqəddəs İohann (Lüteran) kilsəsinin memarlıq xüsusiyyətləri, neoqotik üslubun regional adaptasiyası, eləcə də kilsənin istifadəsində baş vermiş funksional dəyişikliklər araşdırılır. Abidənin bərpa və adaptiv istifadəsi müasir konservasiya prinsipləri kontekstində qiymətləndirilir. 2008-ci il təmiri və muzey kimi fəaliyyətə başlaması kilsənin həm memarlıq irsi, həm də mədəni yaddaş nümunəsi kimi qorunmasını təmin etmişdir. Məqalə alman memarlıq irsinin Azərbaycan multikultural mühitində tutduğu yeri və bu irsin davamlı mühafizə perspektivlərini göstərir.

**Açar sözlər:** bərpa, mühafizə, koloniya, inventarlaşma, diyarşünaslıq

**Giriş.** Azərbaycanın çoxmədəniyyətli tarixi müxtəlif etnik və dini icmaların qarşılıqlı təsirinin nəticəsidir. Bu mühitdə XIX əsrin əvvəllərində ölkəyə köçürülmüş alman icması xüsusi yer tutur. 1817-ci ildən Gəncəbasar bölgəsində salınan alman koloniyaları Azərbaycanın sosial, iqtisadi və memarlıq həyatına yeni elementlər gətirmişdir. Bu koloniyaların ən mühümlərindən biri olan Helenendorf (indiki Göygöl) alman yaşayış mədəniyyətinin və memarlıq üslubunun qorunduğu nümunəvi məkan kimi formalaşmışdır.

Helenendorfda inşa edilmiş Lüteran kilsəsi alman icmasının dini və ictimai həyatının əsas mərkəzlərindən biri olmuşdur. XIX əsrin ikinci yarısına

aid bu bina sonrakı dövrdə ibadət funksiyasını itirmiş və XX əsrin ikinci yarısından Göygöl Diyarşünaslıq Muzeyinə çevrilmişdir. Kilsənin muzeyləşdirilməsi alman memarlıq irsinin qorunması və abidənin yeni mədəni funksiyaya qovuşdurulması baxımından uğurlu təcrübə sayılır.

Mövzunun aktuallığı Helenendorf irsinin Azərbaycanın çoxmədəniyyətli tarixində mühüm yer tutması ilə bağlıdır. Burada alman memarlıq üslubunun yerli ənənələrlə uyğunlaşdırılması və kilsənin müasir muzey kimi fəaliyyəti mədəni irsin davamlılığını təmin edən əsas amillərdir.

Tədqiqatın məqsədi Lüteran kilsəsinin (indiki Göygöl Diyarşünaslıq Muzeyi) tarixini, memarlıq xüsusiyyətlərini və mühafizə prosesini araşdırmaq, onun muzeyləşdirilməsi təcrübəsini elmi şəkildə təhlil etməkdir. Tədqiqatın obyekti Azərbaycanda alman memarlıq irsi, predmeti isə Helenendorf Lüteran kilsəsinin qorunması və müasir ictimai-mədəni funksiyasıdır. İş zamanı tarixi-analitik, memarlıq-təhlil və müqayisəli metodlardan istifadə olunmuşdur ki, bu da abidənin həm memarlıq, həm də mədəni irs aspektlərinin kompleks araşdırılmasına imkan vermişdir.

**Almanların Azərbaycana gəlişi.** Almanların XVIII əsrin ikinci yarısından etibarən Rusiyaya, oradan da Cənubi Qafqaza köçü əsasən sosial-iqtisadi və dini amillərlə bağlı idi. Alman torpaqlarında kənd təsərrüfatının zəifləməsi, torpaq çatışmazlığı və iqtisadi çətinliklər ailələri doğma yurdlarını tərk etməyə vadar edirdi. Bununla yanaşı, pietist və separatist dini qrupların təqiblərlə üzləşməsi də köçü sürətləndirirdi. Xüsusilə Baden-Vürtemberqdən çıxan pietist icmalar mistik və xiliazist təsəvvürlərdən qaynaqlanan "müqəddəs torpaqlara qayıdış" ideyası ilə Cənubi Qafqaza yönəlirdilər. Beləliklə, alman köçü həm sosial-iqtisadi, həm siyasi, həm də dini motivlərin vəhdəti ilə formalaşmış, dini faktor əhəmiyyətli rol oynamışdır [Ağasiyev İ., 2024, s. 80].

1816-1817-ci illərdə Almaniyadan Cənubi Qafqaza doğru kütləvi köç başlayaraq 1400-dən çox ailə (təxminən 6000 nəfər) yola çıxmışdı. İlk koloniya olan Marienfeld çətin mühacirət yolu ilə Tiflis yaxınlığında salınmış, digər qrupların bir qismi Odessada, digərləri isə Qafqazın müxtəlif regionlarında məskunlaşmışdı. Köç yolu Xerson, Rostov, Stavropol və Mozdok üzərindən keçmiş, xəstəlik və soyuq səbəbindən yüzlərlə insan həyatını itirmişdi.

Gürcüstanda Yekaterinenfeld, Aleksandrdorf və Yeni-Tiflis kimi koloniyalar formalaşdıqdan sonra alman köçünün bir hissəsi Azərbaycanın Yelizavetpol quberniyasına yönləndirilmişdir. 1819-cu ildə Qotilob Kox, Yakob Krauze və İohann Vuxerin rəhbərliyi ilə kolonistlər Gəncə çayının sağ sahilinə köçürülərək Yelenendorf koloniyasını yaratdılar. Koloniya I Aleksandrın bacısı

Yelena Pavlovnanın şərəfinə adlandırılmış, burada 127 alman ailəsi məskunlaşdırılmış və onlara 2600 desyatin torpaq ayrılmışdı. Eyni ildə Şəmkir ərazisində salınmış Annenfeld koloniyasında isə 84 alman ailəsi yerləşdirilmişdi. Bu iki məskən ümumilikdə təxminən 1100 nəfəri birləşdirir və Qafqazın ən iri alman koloniyalarından sayılırdı [Abdullayev Ç., 2014, s. 48-49; Hacıyeva R., 2019, s. 16-17].

Sonrakı onilliklərdə alman icması genişlənərək Georqsfeld (Çınarlı), Alekseyevka, Qrünfeld (Həsənsu), Ayxenfeld (İrmaşlı), Traubenfeld (Tovuz), Yelizavetinka (Ağstafa) və Marksovka kimi yeni yaşayış məntəqələri yaratdı. XX əsrin əvvəllərinə doğru Azərbaycanda alman əhalisinin sayı 23 minə çatmış, təkcə Helenendorfda təxminən 3500 nəfər yaşayırdı.

Kolonistlərin ilk illərdəki həyat şəraiti ağır olmuşdur. Çar hökuməti onlardan həm iqtisadi intizam nümunəsi göstərməyi, həm də "mədəni vasitəçi" rolunu oynamalarını gözləyirdi. Bu məqsədlə onların yerli icmalarla təmasına məhdudiyyətlər qoyulmuş, 1829-cu ildə gürcülərlə nikah qadağan edilmiş, 1848-ci il dairəvi fərmanı ilə ermənilər və digər yerli xalqların alman koloniyalarına daxil olması yasaqlanmışdı [**Вердиева Х.**, 2025, s. 13].

**Almanların məskunlaşdıqları bölgəyə töhfələri.** XIX əsrin birinci yarısından etibarən almanların Azərbaycanda məskunlaşması ölkənin sosial-iqtisadi, mədəni və texnoloji inkişafına əhəmiyyətli təsir göstərmişdir. Kolonistlərin fəaliyyəti nəticəsində sənaye və təhsil müəssisələri, tibb məntəqələri, kitabxanalar və kilsələr yaradılmış, kənd təsərrüfatı və sənayedə yeni texnoloji yanaşmalar tətbiq olunmuşdur. Alman icması həmçinin ölkədə ilk telefon rabitə xətlərinin çəkilməsində və müasir mühəndislik sistemlərinin formalaşmasında mühüm rol oynamışdır.

Bu inkişafın əsas iştirakçılarından biri "Siemens & Halske" şirkəti idi. Şirkət dəmir yolu xətlərinin çəkilişi, su elektrik stansiyasının qurulması və neft kəməri layihələrinin icrası kimi mühəndislik işlərini həyata keçirmişdir. "Forer qardaşları" isə şərabçılıq sənayesinin modernləşməsinə, məhsul keyfiyyətinin və ixrac potensialının yüksəlməsinə xüsusi töhfə vermişdir. Xristian Forerin 1898-ci ildə Annenfelddə qızıl, Daşkəsəndə isə dəmir filizi yataqlarını aşkarlaması almanların Azərbaycanın təbii ehtiyatlarının öyrənilməsində də fəal iştirak etdiklərini göstərir [Angaldt, M., 2022].

Almanların məskunlaşdığı yaşayış məntəqələri səliqəli şəhərsalma prinsipləri ilə seçilirdi. Arx sistemi həm su təminatı, həm də abadlıq məqsədlərinə xidmət edir, küçə boyunca əkilmiş ağaclar isə iqlimə uyğun ekoloji mühit yaradırdı. Memar Demidovun layihələri əsasında tikilən evlər

alman memarlıq üslubunun yerli şəraitə uyğunlaşdırılmış forması idi. Mansard tipli kirəmit damlar, kiçik həyət ətrafında qurulan yaşayış və təsərrüfat binaları, eləcə də zirzəmilərin geniş istifadəsi bu üslubun əsas xüsusiyyətlərindəndir. Bu şəhərsalma modeli zamanla yerli əhali tərəfindən də mənimsənilmiş və qərb bölgəsinin memarlıq simasında alman təsiri günümüzə qədər qorunmuşdur [İbrahimov N, 1997, s. 233]. Şəhərsalma strukturu yalnız gündəlik tələbatı deyil, icmanın dini və mədəni həyatını da dəstəkləyirdi. Bu kontekstdə şəhərin mərkəzində inşa edilmiş Lüteran kilsəsi koloniyanın həm dini, həm də sosial mərkəzi funksiyasını yerinə yetirirdi.

**Göygöldəki Lüteran kilsəsi.** Müqəddəs İohann Kilsəsi Alman memarları A.Eyxler və F.Lemkulun layihələri əsasında 1854-cü ildə alman icması tərəfindən inşa edilmiş və 1857-ci ildə istifadəyə verilmişdir. Binanın fəaliyyət dövrü 1941–1945-ci illər arasında kilsə funksiyası ilə məhdudlaşmış, almanların sürgün edilməsindən sonra isə müxtəlif ictimai və dövlət ehtiyaclarına uyğun istifadə olunmuşdur; bu dövrdə bina həm hərbi hospital, həm də idman məktəbi kimi fəaliyyət göstərmişdir. 2005-ci ildən etibarən isə kilsə Göygöl Rayon Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərir ki, bu da tarixi memarlıq abidələrinin adaptiv istifadəsinin nümunəsi hesab olunur [Əliyev E., 2017, s. 45].

2008-ci ildə Müqəddəs İohann Kilsəsi Almaniya Texniki Əməkdaşlıq Cəmiyyətinin dəstəyi ilə əsaslı təmir olunmuş və təmir işlərinə 250 min avro vəsait xərclənmişdir. Abidə, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Yerli Əhəmiyyətli Memarlıq Abidəsi kimi təsnif edilmiş və İnventar № 4276 ilə dövlət mühafizəsinə götürülmüşdür. Bu rəsmi status tikilinin tarixi, mədəni və memarlıq dəyərinin tanınmasını təmin edir və onun bütövlüyünün qorunması üçün hüquqi baza yaradır [Hacıyeva R., 2019, s. 43].

Kilsə binası region üçün xarakterik qırmızı daş hörgüdən inşa edilmiş, neoqotik memarlıq üslubunun əsas elementlərini – uca qüllə, sivri tağlı pəncərələr və şaquli vurğulama – nəzərə çarpan şəkildə əks etdirir. Hazırkı vəziyyəti, fasadın təmizliyi və daş hörgünün bütövlüyü, yüksək keyfiyyətli bərpa və konservasiya işlərinin aparıldığını təsdiqləyir. Bu, abidənin fiziki dağılmasının qarşısını almaq və tarixi-memarlıq görünüşünü gələcək nəsillər üçün qorumaq məqsədinə xidmət edir.

Müqəddəs İohann Kilsəsinin muzeyə çevrilməsi, adaptiv yenidən istifadə strategiyasının klassik nümunəsini təşkil edir. Bu yanaşma, tarixi tikililəri sökülməkdən və baxımsızlıqdan qoruyaraq onları müasir sosial və mədəni ehtiyaclara uyğunlaşdırmağa imkan verir. Binanın Tarix-Diyarşünaslıq

Muzeyi kimi fəaliyyəti, həm memarlıq və tarixi dəyərin qorunmasını, həm də yerli mədəniyyətin və tarixinin təbliğini təmin edir. Kilsənin yerləşdiyi abadlaşdırılmış meydan, hündür sərvlər, skamyalar və digər müasir istirahət elementləri ilə birlikdə, binanın ictimai rekreasiya məkanı və mədəni turizm marşrutunun əsas komponenti olmasını təmin edir. Muzeydə həmçinin sərgilər və tədbirlər də keçirilir və bu tədbirlərə alman diaspor nümayəndələri də dəvət olunur. Müqəddəs İohann kilsəsi kimi tarixi memarlıq abidələrinin diyarşünaslıq muzeyində sərgilənməsi bir sıra müsbət cəhətləri özündə ehtiva edir. İlk növbədə, abidənin ictimaiyyət üçün əlçatan olması onun mədəni və tarixi dəyərinin geniş auditoriyaya çatdırılmasına imkan yaradır. Bu, həm yerli, həm də xarici turistlərin cəlb olunmasını artıraraq turizm potensialını gücləndirir. Eyni zamanda, muzey mühiti abidənin qorunması üçün nəzarətli şərait təmin edir; yəni hava, rütubət və digər təbii təsirlərdən yaranan zərər riskini azaldır. Sərgilənmiş eksponatlar vasitəsilə ziyarətçilər tarixi və memarlıq xüsusiyyətləri barədə məlumat əldə edir, mədəni irsin dəyərləri ilə tanış olurlar. Bu, abidənin təcrid olunmasının qarşısını alaraq onun davamlı mühafizəsi üçün iqtisadi və sosial dəstəyin təmin edilməsinə xidmət edir.

Orta Avropa, xüsusən alman mədəniyyətində kilsə qüllələrinə saat qoyulması ənənəsi mövcuddur. Müqəddəs İohann Kilsəsinin qülləsindəki saat, yalnız dini funksiya daşımır, həm də icmanın mərkəzi kimi şəhərsalma və sosial nizamın simvoluna çevrilmişdir. Bu xüsusiyyət, Helenendorf (indiki Göygöl) alman icmasının mədəni və şəhərsalma ənənələrinin əyani göstəricisidir.Tarixi mənbələr saatın işlək olduğunu göstərsə də, sahə araşdırmaları nəticəsində bu texnoloji elementin artıq işləmədiyi müəyyən edilmişdir. Abidənin texnoloji elementlərinin qorunması və bərpası baxımından bu fərq mühüm əhəmiyyətə malikdir.

Hazırda Azərbaycanda almanların mədəni irsini təşkil edən bir sıra abidələr qorunub saxlanılır. Bu abidələr sırasında xüsusi önəm daşıyan obyektlər Bakı, Göygöl və Şəmkir şəhərlərində yerləşən lüteran kilsələridir. Eyni zamanda, bu ərazilərdə əvvəllər alman kolonistlərinin yaşadığı evlər və digər tikililər də mühafizə olunmuşdur. Alman kolonistlərinin ölkədə yaratdığı bu memarlıq irsi həm tarixi, həm də mədəni baxımdan əhəmiyyətli sayılır və yerli tarixşünaslıq və memarlıq tədqiqatlarında xüsusi yer tutur.

2010-cu ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Lüteran kilsəsi binasında əhatəli təmir və bərpa işlərinə başlanmışdır. Aparılan genişmiqyaslı restavrasiyalardan sonra binada Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalı açılmışdır.

Açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etmiş, bu mədəniyyət obyektinin əhəmiyyətini vurğulamışlar.

Daha sonra, 2013-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev Şəmkir rayonunda yerləşən alman lüteran kilsəsinin bərpa edilmiş binası ilə tanış olmuşdur. Bu, dövlət səviyyəsində alman mədəni irsinin qorunmasına və onun ictimaiyyətə təqdim edilməsinə verilən önəmin göstəricisi kimi qiymətləndirilir. Həm Bakıdakı, həm də regionlarda yerləşən bu abidələr, alman kolonistlərinin Azərbaycan mədəniyyətinə verdiyi töhfənin canlı nümunəsi olaraq tarixşünaslıq və memarlıq araşdırmalarında diqqət mərkəzində saxlanılır [Zeynalova S., 2016].

2017-ci ildə Cənubi Qafqaz regionuna, o cümlədən Azərbaycan ərazisinə almanların köçürülməsinin və alman məskənlərinin salınmasının 200 illiyi tamam olmuşdur. Bu münasibətlə keçirilən tədbirlər UNESCO-nun yubiley proqramına daxil edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 avqust 2016-cı il tarixli "Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında" sərəncam imzalayaraq, tarixi irsin qorunmasına dövlət səviyyəsində diqqət və qayğının göstərildiyini təsdiqləmişdir.

Bu sərəncam, Azərbaycanda alman mədəniyyətinə məxsus abidələrin qorunması və bərpası, eləcə də onların adaptiv şəkildə istifadəsi, o cümlədən muzeyləşdirilməsi baxımından mühüm hüquqi və institusional çərçivə təmin edir. Eyni zamanda, tədbir və təşəbbüslər ölkədə tolerantlıq və multikulturalizm siyasətinin praktik ifadəsi kimi, tarixi və mədəni irsin ictimaiyyətə çatdırılması və davamlı qorunması istiqamətində əhəmiyyətli addım hesab olunur.

**Nəticə.** Göygöldə yerləşən Lüteran kilsəsi – Alman köçürülməsinin tarixi izlərini, memarlıq irsinin xüsusiyyətlərini və multikultural mühitin təkamülünü özündə birləşdirən nadir abidələrdən biridir. XIX əsrin əvvəllərindən etibarən Cənubi Qafqaza köçürülən alman icmasının fəaliyyəti Azərbaycanın sosial-iqtisadi və mədəni həyatına mühüm təsirlər göstərmiş, xüsusilə Helenendorf və Annenfeld kimi koloniyalar Qafqazın urbanistik və memarlıq tarixində yeni mərhələnin əsasını qoymuşdur. Almanların sənaye, kənd təsərrüfatı və şəhərsalma sahəsində tətbiq etdikləri yeniliklər regionun inkişaf dinamikasına birbaşa təsir etmiş, bu irs sonrakı nəsillər üçün mühüm maddi-mədəni qat yaratmışdır.

Lüteran kilsəsi bu irsin ən parlaq memarlıq nümunələrindən biri kimi seçilir. Neoqotik üslubun xüsusiyyətlərini daşıyan bina həm alman dini

həyatının mərkəzi olmuş, həm də icma strukturunun sosial funksiyalarını yerinə yetirmişdir. Kilsənin XX əsrdən etibarən müxtəlif təyinatlarla istifadə olunması, daha sonra Göygöl Diyarşünaslıq Muzeyinə çevrilməsi abidənin adaptiv mühafizə potensialını nümayiş etdirir. Bu proses həm memarlıq obyektinin fiziki bütövlüyünün qorunmasına, həm də tarixi irsin müasir mədəniyyət sahəsinə inteqrasiya olunmasına şərait yaratmışdır.

Aparılmış təhlil göstərir ki, kilsənin bərpa və mühafizə strategiyası beynəlxalq konservasiya prinsiplərinə uyğun şəkildə formalaşdırılmışdır. Abidənin dövlət səviyyəsində qorunması, bərpa işlərinin həyata keçirilməsi və ictimai istifadəyə açılması multikultural irsin yaşadılmasına yönəlmiş məqsədyönlü siyasətin göstəricisidir. Bununla yanaşı, kilsənin muzey kimi fəaliyyəti tarixi-memarlıq irsinin interpretasiyası, ictimaiyyətə çatdırılması və turizm potensialının gücləndirilməsi baxımından əhəmiyyətli nəticələr doğurmuşdur.

Nəticə etibarilə, Helenendorf Lüteran kilsəsi yalnız alman memarlıq ənənələrinin Azərbaycandakı nümunəsi deyil, həm də ölkənin multikultural tarixi və mədəni irs siyasətinin canlı təcəssümüdür. Abidənin mühafizəsi və muzeyləşdirilməsi göstərir ki, xarici icmaların Azərbaycan tarixində qoyduğu izlər həm elmi-tədqiqat, həm də praktiki irs idarəçiliyi üçün mühüm resursdur. Bu irsin öyrənilməsi və davamlı mühafizəsi gələcək tədqiqatlar üçün geniş perspektivlər açır və ölkənin mədəni irs siyasətinin mühüm istiqamətlərindən biri kimi aktuallığını qoruyur.

## Ədəbiyyat siyahısı

1. Abdullayev Ç. Azərbaycan–Almaniya əlaqələri. Bakı: Mütərcim, 2014, 192 s.
2. Ağasiyev İ. Qafqazın alman məskənləri: XVIII əsrin sonu–XX əsrin ortaları. Bakı: Nəşriyyat şöbəsi, 2024, 504 s.
3. Əliyev E. Azərbaycan memarlığında alman irsi. Bakı, 2017, 208 s.
4. Hacıyeva R. Azərbaycan tolerantlığında alman irsinin izləri və memarlığı. Bakı: Tuna nəşriyyatı, 2019, 180 s.
5. İbrahimov N. Azərbaycan tarixinin alman səhifələri. Bakı: Azərbaycan nəşr., 1997, 336 s.
6. Zeynalova S. Azərbaycanda alman məskənlərinin salınmasından 200 il keçir. Xalq qəzeti. 2016, May 10
7. Angaldt, M. (2022, April 13). Azərbaycan almanları: Şanlı keçmişdən deportasiyaya. Daz.asia. https://daz.asia/ru/author/marinaangaldt/

8. Вердиева Х. К вопросу о сепаратизме немцев–колонистов закавказья в XIX веке / Немцы в истории Азербайджана. Баку: Füyuzat, 2025, s. 13-24

**Aytac Humbat gizi Ismayilova**

**Preservation and Museification of German Architectural Heritage in Azerbaijan: on the Example of the Lutheran Church**

**Summary**: This article investigates the migration of Germans to the South Caucasus, particularly the territory of present-day Azerbaijan, during the late eighteenth and early nineteenth centuries. It analyzes the social, economic, political, and religious motivations behind this migration and the historical formation of German colonies. The establishment of settlements such as Helenendorf (modern Göygöl) and Annenfeld significantly influenced regional urban development, introducing innovations in industry, agriculture, and town planning. The study focuses on the architectural features of the Church of St. John (Lutheran) in Göygöl, emphasizing the regional adaptation of the Neo-Gothic style and the functional transformations the building has undergone over time. The restoration and adaptive reuse of the monument are assessed within the framework of contemporary conservation principles. The 2008 renovation and the church’s subsequent operation as a museum have ensured its preservation both as an architectural heritage site and as a repository of cultural memory. The article underscores the significance of German architectural heritage within Azerbaijan’s multicultural context and discusses prospects for its sustainable preservation.

**Key words**: restoration, preservation, colony, inventory documentation, local history studies

**Айтадж Гумбат гызы Исмаилова**

**Сохранение и музеефикация немецкого архитектурного наследия в Азербайджане: на примере лютеранской церкви**

**Резюме**: В статье исследуется переселение немцев на Южный Кавказ, в частности на территорию современного Азербайджана, в конце XVIII – начале XIX веков, а также социально-экономические, политические и религиозные мотивы данного процесса и история формирования немецких колоний. Основание таких поселений, как Гелененндорф (ныне Гёйгёль) и Анненфельд, оказало значительное

влияние на урбанистическое развитие региона, способствуя внедрению новшеств в промышленности, сельском хозяйстве и градостроительстве. В исследовании анализируются архитектурные особенности церкви Святого Иоанна (лютеранской) в Гёйгёле, региональная адаптация неоготического стиля, а также функциональные изменения, произошедшие в использовании данного сооружения. Реставрация и адаптивное использование памятника оцениваются в контексте современных принципов консервации. Ремонт 2008 года и последующее функционирование церкви в качестве музея обеспечили её сохранение как образца архитектурного наследия и носителя культурной памяти. В статье показано место немецкого архитектурного наследия в мультикультурной среде Азербайджана и обозначены перспективы его устойчивой охраны.

**Ключевые слова**: реставрация, охрана, колония, инвентаризация, краеведение

*Məqalənin redaksiyaya daxilolma tarixi: 18.11.2025*

*Rəyçilər: Milli Azərbaycan Tarixi Muzeyinin böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Aida İsmayılova; Milli Azərbaycan Tarixi Muzeyinin şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Nasir Quluzadə*